AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# Avtonəqliyyat Xidməti üzrə Sadələşdirilmiş Vergisi

2019

Dövlət naminə

www.taxes.gov.az

**Beynəlxalq yük və sərnişin daşıma fəaliyyəti ilə məşğul olmadan və ƏDV qeydiyyatına könüllü qaydada durmadan avtonəqliyyat xidməti üzrə fəaliyyətinizi sadələşdirilmiş verginin ödəyicisi kimi həyata keçirirsinizsə, bilməlisiniz ki...**

Bu fəaliyyət növü üzrə təqvim ayının sonunadək vergini tam məbləğdə dövlət büdcəsinə ödəməklə, ödəniş sənədləri və ərizə ilə birlikdə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin müvafiq qurumuna **(Bakı şəhərinin inzibati ərazisində avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili sərnişindaşıma və taksi minik avtomobilləri ilə sərnişindaşıma həyata keçirildikdə isə Bakı Nəqliyyat Agentliyinə)** təqdim etməklə, istəyinizə uyğun olaraq növbəti ay, rüb, yarım il və ya il üçün ciddi hesabat blankı olan **"Fərqlənmə nişanı"** almalı;

Fərdi sahibkar kimi bu fəaliyyət növü üzrə **2019-cu il ərzində** hər ay üzrə ölkə üzrə müəyyən olunmuş minimum aylıq əmək haqqının **20 faizi** (Bakı şəhərində 100 faizi, Sumqayıt və Gəncə şəhərlərində 90 faizi, respublika tabeli digər şəhərlərdə 80 faizi, rayon mərkəzlərində, digər şəhərlərdə və qəsəbələrdə 60 faizi, kənd yerlərində 50 faizi), **2020-ci ildən** etibarən isə **25 faizi** miqdarında **məcburi dövlət sosial sığorta haqqını** hesablamalı və bu barədə rüb başa çatdıqdan sonra növbəti ayın **20-dən gec olmayaraq** vergi orqanına hesabat təqdim etməli;

**Məcburi dövlət sosial sığorta haqqını** hər ay üzrə növbəti ayın **15-dən gec olmayaraq** tam məbləğdə yalnız nağdsız hesablaşma qaydasında ödəməlisiniz.

# Verginin dərəcələri barədə

**Avtonəqliyyat vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən vergi ödəyiciləri üçün aylıq olaraq sadələşdirilmiş vergi aşağıdakı kimi müəyyən olunur:**

| Daşınma növü | Ölçü vahidi | Verginin aylıq məbləği (manatla) |
|---|---|---|
| Sərnişin daşınması (taksi istisna olmaqla), oturacaq yerlərinin sayına görə | 1 oturacaq yeri üçün | **1,8 manat** |
| Taksi ilə sərnişin daşınması | 1 ədəd nəqliyyat vasitəsi üçün | **9 manat** |
| Yük daşınması | Yükgötürmə qabiliyyəti üzrə (hər tona) | **1 manat** |

**Fəaliyyət göstərildiyi yerdən asılı olaraq, yuxarıda qeyd olunan aylıq məbləğə aşağıdakı əmsallar tətbiq edilir:**

| | |
|---|---|
| Bakı şəhərində (kənd və qəsəbələr daxil olmaqla) və Bakı şəhəri ilə ölkənin digər yaşayış məntəqələri arasında həyata keçirildikdə | **2,0** |
| Abşeron rayonu, Sumqayıt, Gəncə şəhərlərində və həmin rayon və şəhərlərlə digər yaşayış məntəqələri arasında (Bakı şəhəri istisna olmaqla) | **1,5** |
| Digər şəhər və rayonlarda və həmin şəhər və rayonlarla digər yaşayış məntəqələri arasında həyata keçirildikdə (Bakı, Sumqayıt, Gəncə şəhərləri və Abşeron rayonu istisna olmaqla) | **1,0** |

# Unutmayın ki...

- Bu fəaliyyət üzrə sadələşdirilmiş vergi bəyannaməsi təqdim edilmir, vergi ödəyicisinin digər vergi öhdəlikləri (o cümlədən vergi agenti kimi) yarandıqda isə müvafiq bəyannamə vergi orqanına təqdim edilməlidir.

- Digər fəaliyyət növləri üzrə əldə edilmiş gəlirlərin və xərclərin uçotu hər bir fəaliyyət növü üzrə ayrı-ayrılıqda aparılmalı və bu fəaliyyət növləri üzrə mənfəət (zərər) digər fəaliyyət növündən əldə olunmuş mənfəətə (zərərə) aid edilmir.

- Fəaliyyətin göstərilib-göstərilməməsindən asılı olmayaraq, ödənilmiş vergi geri qaytarılmır və növbəti dövrlərin (ay, rüb, yarım il və il) vergiləri ilə əvəzləşdirilmir.

# Bununla belə, bilməlisiniz ki...

- Vergi ödəyicisinin mülkiyyətində olan avtomobil nəqliyyatı vasitələri ilə öz istehsal fəaliyyətini təmin etmək üçün işçilərinin və özünə məxsus yüklərin daşınmasında istifadə etdiyi avtonəqliyyat vasitələri bu vergiyə cəlb edilmədiyinə görə, onlar üçün heç bir haqq ödənilmədən 5 iş günü ərzində Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin müvafiq qurumundan "Xüsusi fərqlənmə nişanı" alınmalıdır. Həmin avtonəqliyyat vasitələrini satarkən və ya icarəyə verərkən, habelə digər məqsədlər üçün istifadə edərkən ən azı 1 iş günü əvvəl nişan geri qaytarılmalıdır.

- Vergi ödəyicisi işçi heyətini və özünə məxsus yükləri daşımaq üçün yeni avtonəqliyyat vasitəsi aldıqda, nəqliyyat vasitələri müvafiq qaydada qeydiyyata alındıqdan sonra 5 gün ərzində Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin müvafiq qurumuna bu barədə Vergilər Nazirliyi tərəfindən müəyyən olunmuş formada məlumat təqdim etməlidir.

# Maliyyə sanksiyaları, faizlər və digər məsuliyyət tədbirləri barədə

Vergi qanunvericiliyinin pozulması hallarına görə tətbiq olunan maliyyə sanksiyaları və digər məsuliyyət tədbirləri barədə məlumatı "Maliyyə sanksiyaları, faizlər və digər məsuliyyət tədbirləri barədə Yaddaş" adlı bukletdən əldə edə bilərsiniz.

AZ1073, Azərbaycan, Bakı,
Landau küçəsi, 16
**Tel.:** +994 12 403 89 70
**Faks:** +994 12 403 89 71
**E-poçt:** office@taxes.gov.az
www.taxes.gov.az